Yusif Həsənbəy

İNSAN ÜRƏKLİ MƏLƏK

Xalq şairi Rəsul Rzanın məzarı başında

Günaydın, ulu ustadım, -
Əqidəsinin qulu,
İradəsinin ağası.
Parlaqlığı, ağlığı
Qırışıqsız cığcığa kağızı!
Yeni sənət yollarının
Beynəlmiləl,
Və mükəmməl kompası, -
Şerin Rəsul Rzası!
Nə qədər ki, ağlım, huşum özümdədi,
İşığım gözümdə,
Taqətim dizimdə,
Qiymətim sözümdədi,
Nəqədər ki, yadımdan çıxmayıb,
Soyadım -
Həsənbəy adım,
Çin olacaq, adınla bağlı hər muradım.
Sənət cıdırlarında Qıratın belindəsən.
Tozuna çata bilmir Düratın!
Şəklini böyütdürüb,
Çarpayının baş ucundan asacam!
Sənin güllələrinlə hədəflərdə onluqları
dələcək tapancam!
Keçdiyin o uzaq yollar
Nə tez qısaldı, ustad!
Ahımla dağlar əridi, daşlar toz oldu ustad!
Təpərlərim, taqətlərim elə tez azaldı ki!
Ərşə bülənd bulaqlarım diblərə qazıldı ki!
Yazdıqlarım elə saymaz,
elə dayaz yazıldıki,
Daha sənə çatmağa arada nə qaldı ki?!
Cəmi beş, ya üç addım, -
Ya bəlkə azdanda az,
elə bir neçə santım!
İndi orda, -
Ah, o nuru -cənnətdə,
Mələkləri pəri, huri cənnətdə,
"Zəmzəmçay" sahillərinin
xurmayı kölgəsində,
Könlün-gözün yenə şeir həvəsində,
Xaqaniləri, Məshətiləri də
"Sabir şeir məclisinə" toplayırsan yəqin!
Barı, ana dilində - iki misra yazdırıb,
Döşünə "Xalq şairi" nişanını
Sancdınmı Nizaminin!
Elin təsübkeş oğlu, -
Nur oğlu, günəş oğlu!
Sənin mələksima olmağın da,
Böyük yaradanın istəyidir.
Xoşbəxtsən, ondaki, sinəndə döyünən
Şair Rəsul Rzanın
İnsan ürəyidir!

DİŞ CƏRRAHI

Mən həkitmlik sənətində dahiyəm!
Ultrasəs- asta kəs,
Usta kəs,
Tez, tələs neştərimlə
Mahir diş cərrahiyiyəm!
Ancaq, heyhat!
Nəfslərin qurbanıdır bu gün həyat!
Cəzasızlıq at belində, -
Cani ifrat!
Terror ifrat!
"Topqapının" ən qiymətli daş-qaşları,
"Aya Sofya" məbədinin qənirsiz naxışları,
İsrailin müqəddəs "Göz yaşı" divarı da,
Satılır, alınır!
Misrin ulu ehramları qarətlənır, talanır!
Qocaman İran, -
Günü- gündən ucalan İran,
hərraca qoyulur!
"Noyenberyan" əsir düşərgəsində,
Buhenvaldakı baca tərzində
Neçə baca qoyulur!
Bu varlanmaq yarışında
Ən varlı dövlətlər bir-birinə qənimdi!
O Qacar deyir yer-göy mənimdi!
Bu Sezar deyir hər şey mənimdi!
Get -gedə itiləşir
Tamahkir işbazların azı dişləri!
O dişlərin üstündəki, altındakı,
Köküdəki, mina qatındakı,
Tamahın şirin cövhəri, -
Vaxt- bivaxt kükrəyir, daşır, -
Terrorlar qızışır, dünya sona yaxınlaşır!
Mən o azı dişlərin, -
O azğın, quzğun dişlərin,
Rişələrin üzür, köklərini qoparıram!
Mən insanları nəfsiz, qəsbsiz
Günahsız,
Silahsız
Sabahlara aparıram!
Daha nə faraonlar olacaq dünya üzündə,
Nə Napoleonlar,
Nə Heron, Nə İsgəndər!
Yox olacaq ölkələr arasındakı
Səddlər, sərhədlər!
İnsanlar könlü şux, gözü tox olacaq!
Doğulanlar da elə mənim kimi
Dili Quranı
Qəlbi Allahı,
Dahi doğulacaq!

HİPPOKRAT GÜLGƏZ NƏNƏ

Qara, quru bir qız idim,-
Qız idim, qızıl idim!
Amma bir az dəyərimdə, əyarımda
Aşağıfaiz idim!
Yarpızları səmumların, -
Boz qumların,
Koz qumların yağışıyla qırmalanan, -
Qarabaxt payız idim!
Bir gün də,-
Yeriyəndə bir qolu
Yerə dəyanətlə dirənən əsa,
Boyu həyətimizdəki
işıq şalbanından bir az qısa,
Ağbirçək Gülgəz nənə yolumu kəsdi.
Dedi qız, qaş-qabağını yığışdır!
Qaralara bürümə nurlu aynanı!
Sənin gözəlliyin kölgədə qoyar
Gözəllik timsalı,
Əslən bizim Şuşalı,
Qeysi Məcnuna döndərən Leylanı!
Gözlərinin qorasındakı şəvə,
İşvə,
Civə işıq
Ağ hollogenli işıqdı.
Yanaqların, üzünə yumrta sarısı
çəkilmiş bulka,
Dodaqların qaymaq dolu qaşıqdı!
Gülgəz nənə külü donmuş
Bir ocağa göz atdı.
Gülgəz nənə həkimliyin anası, -
Hippokratdan
Yeddi arşın irəli Hipokratdı.
Mənə gözəlsən dedilər,-
Dəmyələrin daşlığında
güllər açdı tabaq-tabaq,
Səhralarda şaqa-şaqla daşdı sellər!
Saçlarımda
Sancaqlandı,
Çaraqlandı yaşıl, sarı qərənfillər!
Əndamına kip yanaldı ensiz dönüm da,
Qaynar bir ağuşa həsrət,-
Qığıcım öpüşə həsrət duydum canımda!
Xoşbəxt idim! Ancaq Axı, Bakının
Tüstüsü nəfəs kəsən tütün favbrikasında,
Sumqayıtın boz tozlu beton fabrikasında,
Kürdəmirdə, süddən yanıq gəlinlərin
Pambıq Afrikasında
Çalışan qızların da çöhrələri qırışdı!
Deyirəm . Ey başbilənlərimiz
Bəlkə siz Hippokrat nənəni
ezam edəsiniz
Ölkənin hər yerinə!
Dünyamız da qovuşsun
Dünya gözəlliklərinə!

SUBASMADAN QORUYAQ DÜNYAMIZI

- Ay kişi, o mavi üzü,-
Su güzgüsü,-
Bizim o quzu dəniz,
Quduzlaşıb neçə vaxtdı!
Göyə bülənd dalğaları
Buludlara dəstək-dirək şəfəqləri
Kökdən üzən dəryazdı,
Naçaqdı, çapacaqdı!
Evdən xeyli aralıydı
Maçalka- ləpəli sahil!
İndi selli direlləri zirzəmiyə qazılır.
Dalğaların qəlpələri-ləpələr,-
Paltar iplərimizdən şəlpə kimi asılır!
Bu subasmaların qalıb-səlib yürüşü
Məni yaman qorxudur.
Xəzərdə Misrin ehramlarından da
dözümlü,-
Tahir Salah rəsmli
Estokadaları sular udur!
Fəsadlar güclənir get-gdə.
Neyləyək? Göz yumaq bu fəlakətə?
- Bəs nədi? Gərək biz də
taleyin hokum ilə barışaq!
- Xeyir! Əsla! Atacam özümü dənizə,-
O qovqa-sovxa dalğalarla
kürəcəm çənkə!
O qatil dalğaları dişimlə, - dırnağımla,
Göz qapağımla
Sahilə tullayacam cəngə-cəngə!
Dayan! Bəs o şırıltı səsi,
Hardan gəlir, ay kişi?
- Bekara şeydi, əşi!
Mətbəxtdə su kranıdı,
belə şövqlə aşıb-daşır.
- Bəs niyə donmusan?
Boğazına bir tıxac bas!
Ya bir kəsək, ya bir daş bas!
Azalsın dünyanı ağzına alan sellər,-
Heç olmasa bir neçə vedrə-
Ya bəlkə bir neçə litrə
Azalsın bircə damcı, bircə qətrə!
Daha yubanma! Tez susdur o kranı,
Subasma faciəsindən qurtaraq dünyanı!

QIZILI YARPAQ

Bir budaq ucunda, şıltaqdı, oynaqdı, -
Ah, necə də ağbaxtdı yarpaq!
Üfüqlər boyu ləngərli orman, -
Ümmandakı sanki,
O ümmanda dərə-gəmilərə
Yol göstərən mayakdı yarpaq!
Başı üstə nə yanardı, nə qaynar,
Elə belə, - həlimdi şəfəqlər.
Aşağıda - hənirsiz göl səthinə
Xalı kimi sərilib.
Su gülləri- Lotoslar, -
Al, yaşıl çiçəklər!
Gözəldi həyat!
Göy gurlamır, ildırım çaxmır,
Şəfəqlər yandırmır, yaxmır!
Daşlar oynamadı yerindən,
Ormanda zəlzələ qopmadı.
Budaqlar bir-birini,
Qılınc kimi çapmadı.
O yarpaqlı budaq da
Titrəmədi, əsmədi.
Külək o boyda meşədəki yarpaqların
Heç birini üzmədi!
Və lakin, və ancaq,-
Yarpaqlar gözəli, o qızılı yarpaq,
Yığıldı, büzüldü,
Axırda üzüldü budağdan,-
Burula-burula yuvarlandı aşağı!
Yarpaq öz işığı, naxışlarıyla
Göl üzündəki xalının naxışlarına qarışdı!
Ölümündən sonra yaşamaq,
yaşatmaq da
Xoşbəxtliyin naxışıdı!

XOŞBƏXTDİR SEVİLƏNLƏR

Daha soruşmursan, hara gedirsən,
Şəkər ovqatıma zəhər qatmırsan!
İpdən götürdüyün quru paltarı,
Təzədən qaytarıb ipə atmırsan!
Şalvarım bir dəfə ütü görmədi,
Köynəyim həmişə qırışıq olub.
Səhər salam verdim qonşu arvada,
Axşam eşitdim ki, saçı yolunub.

Dostlarla toylara gedirdik hərdən,
Mağardan gec gəldim evə bir dəfə.
Yumruğu havada cumdun üstümə,
"Nədi? Cəngilərlə baxırsan keyfə!?"

Bir axşam mazladım çəkmələrimi,
Qalstuk da vurdu al qırmızıdan!
- Yenə hara belə,
Ay qoca lələ?
Elə təpiklədin döşəməni ki,
Tavanda çılçıraq qopdu yerindən,
Başında fırlandı yenə dəyirman?

Bir damın altında küsülü yatdıq,
Mən başqa tərəfdə, sən başqa yanda!
Mən yuxu bilmədim səhərə kimi,
Sənin də gözlərim gəzdi tavanda!

İndi çəlikləyəm, öskürəkliyəm,
Çılğın bir cavanın, sönük şəkliyəm!
Mən bu talehimlə qövqa- cənliyəm!
Yanımdn düz keçir gəmilər, qızlar,
Şimşək kimi çaxmır gözümdə gözlər!

O gün ətir səpdim bəyaz saçıma,
Şığıdın üstümə, hara gedirsən?
Nə qədər xoşbəxtəm, ahıl yaşda da
Sevilirəm mən!

MƏNİ ATSAN, YANDIRACAM ÖZÜMÜ!

Sənsiz elə sərsəri, elə çaşqınam!
Göz yaşı sell-daşqınam!
Kərəmi atəşlərə yaxan
Əsli olmayacam əsla!
Mən Nəbini Nəbiləndirən
sənin Həcər eşqinəm!
Ulduzlar arasında
Ulduzunu tapmayan gözlərimlə
Bir çimir yuxuya təşnə!
Sənsizlik səhrasında ağzım-dilim qançır,-
Bir udum,
Bir qurtum suya təşnəyəm!
Sənlə bir yerdə,-
Dünyanın ən parlaq "Şah" almazıyam,
Amma sənsiz, dolu bir boşluğam-
Heçəm! Heçnəyəm!
Yoxsan! Amma hara baxıramsa
səni görürəm.
Boş divara baxıramsa,
Ramkada şəklini görürəm!
İndi nə fərqi var yolumuzdan kim keçib?
Yandıra bilərəmmi, yarəb,
şəfəqləri öləziyən günəşi?!
Mənə nə istəsəm elə, -
Dizlərim üstə qoy bir küncə, -
Qollarımdan çəkib sürü otaqlar boyunca!
Qoy baxım bir də, -
Gözlərində necə çaxır tapanca!
Kirpiklərinin qılıncıyla
Doğranım parça-parça!
Saçlarının alnındakı buruqlarına,
Bəbəklərinin qonur, şirin moruqlarına
Baxım doyunca!
Amma məni atsan,-
Qibləgaha yox,
O bizi yaradan Allaha yox,
Medalyondakı şəklinə tutub üzümü,-
Bir kibrit çəkib saçlarıma,
Yandıracam özümü!
Ancaq, amandı, nəşimə gəlmə yaxın!
Heyifslənərsən, uçuqlayar dilin, dodağın!
Baş götürüb qaçarsan
Məcnun səhralarına.
Daşlarla parçalanar əlin, ayağın!
Birdən elə ağlarsan ki,
od tutar bəbəklərin,
Sönər gözdə çırağın.
Mənsiz də necə çıxarsan evdən,
Pəncəyin ləkəli, köynəyin qırış-qırış!
Deməzlərmi hara baxır bəs, o ləçər,
başıbatmış?!
Nə qədər ki, mən varam,-
Qoymaram əskiklərə gülünc olasan!
Özümüzü kəsən qılınc olasan!
"Mən dönmərəm bu yoldan,
ölüm olsa qayəti!"
Kamalımla, amalımla min yaşa,
dədə Füzuli,
Bəşər səni eşidir,-
Nəsillər əbədi yaşadır saf,
ülvi məhəbbəti?

FİTRİ İSTEDAD

Bir aram ol, ay qardaş,
Nəyə gərək bu tələş?
Axı sənin nə işin var yaltaqnan!
Bəyənmirsən,
Çalış ondan gen saxlan!
Kişi əlini ovcuna sürtə-sürtə,
Başını ora-bura dürtə-dürtə,
"Şessotka" qoyub altına!
Üç yerdə mənzili var,
İki yerdə bağı.
Gözünün üstündə yox.
Dümbəkinin üstündə gəzdirir papağı.
Nə olsun ki, yerli-yersiz,
Elə hey irişir.
Üzü gülür, ağarır dişi.
Bacarırsansa sən də get
Ona -buna aftafa tut.
Boşqab dibi yala!
Buyruqçunun qabağında
Quyruq bula!
Əlindən gəlmirdə sus.
Arxaik sözlərə çevrilib, -
Kişilik, qeyrət, namıs!
Amma, yaxşı saxla yadında,-

Yaltaqlıq fitri istedaddır!
Maksim Qorki deyir ki,
İstedadı yetişdirən
Zamandır, həyatdır!